# Muzeylər gənclər gününə qapı açdı

**Mədəniyyət Nazirliyinin tabeliyindəki muzeylərdə gənclər üçün "Açıq qapı"lar təşkil edilib. Məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili və ölkəmizin zəngin mədəni irsi ilə ətraflı tanış olmalarını təmin etmək olub.**

Dünən biz də nazirliyin tabeliyində fəaliyyət göstərən Azərbaycanın Xalq şairi Səməd Vurğunun Ev Muzeyində olduq.

Muzeyin zal nəzarətçisi Esmira Xankişiyeva bildirdi ki, fevralın 1-də muzeydə qələbəlik olub. Təbii ki, dövlətimiz tərəfindən təşkil edilən bu cür tədbirlər gənclərin həm maariflənməsində, həm də milli adət-ənənələrə bağlılıq ruhunda yetişməsində böyük rol oynayır.



Muzeyin bələdçisi Ayşən Qocayeva Azərbaycan Dövlət Pedaqoji Universitetindən olan ziyarətçilərə dahi şairin həyat və yaradıcılığı haqqında məlumatlar verir, onun şəxsi kolleksiyasından olan və bugünə kimi qorunub saxlanılan qiymətli əşyalarından danışırdı.

Şairin iş otağındakı yazı masası, Azərbaycan, rus və dünya ədəbiyyatı ilə bağlı kitabları və radioqəbuledicini göstərərək bildirdi ki, şair səhhətindəki problemlərlə əlaqədar öz 50 illik yubileyində iştirak edə bilmədiyi üçün bu radioqəbuledici vasitəsilə tədbiri canlı dinləyib.

Bələdçi Könül Cəbiyeva qonaq otağındakı əntiq saatın əqrəblərinin 1956-cı il mayın 27-də həyat yoldaşı Xavər xanım tərəfindən dayandırıldığını söylədi. O gündən əntiq saat eləcə olduğu kimi qorunub saxlanılıb.

Gənc ziyarətçi Humay Bayram: – Biləndə ki, 2 fevral – Gənclər Günü ilə bağlı muzeylərdə "Açıq qapı" günü təşkil edilib, dərhal bu fürsəti dəyərləndirmək qərarına gəldik. Bir neçə muzeydə olduq. Onu da deyə bilərik ki, muzeylərin hərəsi bir aləmdir. Buradan xoş və zəngin təəssüratla ayrılırıq. Bizə yaradılan bu şəraitə görə təşkilatçılara minnətdarıq.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dördüncü kurs tələbəsi



Ədibə Abdullayeva: – Biz də 2 fevral– Gənclər Gününə həsr olunmuş "Açıq qapı" günündən məmnun qaldıq. Rəfiqələrimlə burada mənalı saatlar keçirdik. Bələdçidən Xalq şairi Səməd Vurğunun çox sərrast ovçu olması haqda məlumat aldıq. Eyni zamanda onun ov zamanı istifadə etdiyi xüsusi geyim dəsti və tüfənginə baxdıq.

Bələdçi xanım tərəfindən ziyarətçilərə bildirildi ki, muzeyin qonaq otağındakı Almaniya istehsalı olan royalda vaxtilə Azərbaycanın məşhur simaları Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Vaqif Mustafazadə, Vaqif Səmədoğlu ifa ediblər. Hazırda isə şairin nəticəsi, Ev muzeyinin direktoru Vurğun Vəkilov həmin royaldan istifadə edir.

Bəli, bütün bu bilgiləri öyrənmək gənclərə məhz "Açıq qapı"lar sayəsində mümkün olub. Yəqin ki, onlar bundan sonra da muzeyləri ziyarət etməyə ehtiyac duyacaq, tarixin və tarixi şəxsiyyətlərin yadigarları ilə daha yaxından tanış olmaq istəyəcəklər.

***Elçin ABBASOV,***
***"Xalq qəzeti"***